## *AZƏRBAYCAN TİBB UNVERSTETİ TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİ*

*Tələbə Elmi Cəmiyyəti tələbələrin elmi fəaliyyətini inkişaf etdirmək, dəstəkləmək və stimullaşdırmaq məqsədi ilə könüllülük əsasında birləşdirən, mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə töhfə verən ictimai fəaliyyəti olan tələbə birliyidir.*

Ali təhsil qarşısında duran ən mühüm vəzifələrdən biri müasir tələblərə cavab verən yüksək ixtisaslı kadrlar hazırlamaq, onlara nəzəri və təcrübü vərdişlər aşılamaqdır. İxtisaslı mütəxəsislərin hazırlanmasında tələbə elmi işlərinin çox mühüm əhəmiyyəti vardır.

TEC-in əsas məqsədləri:

Tələbələrin elmi fəaliyyətini aktivləşdirməklə istedadli və ixtasaslaşmiş mütəxəssislərin formalaşması üçün şəraitin yaradılması və inkişafı;

Elmi potensiala malik istedadlı tələbələrin aşkar edilməsi və dəstəklənməsi; Elmi Tədqiqat fəaliyyəti üçün kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi.

TEC- in işi tələbələri elmi-tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsinə, elmin populyarlaşdırılmasına, ölkədaxili və xarici ali məktəblərin, elmi müəssisələrin TEC-i ilə əlaqələrin qurulmasına və saxlanmasına yönəlib.

- Tələbələrdə tədqiqatçılıq fəaliyyətinə və elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması,

- Elmi seminar və konfranslar, tələbə elmi işlərinə, müsabiqələri, müxtəlif ixtisas və fənlər üzrə olimpiadalar, diskussiya klubları, simpoziumlar, tanınmış alimlərin seminarlarını təşkil edilməsi,

- Tələbələrin elmi mərkəzlər, texnoparklar, startap lahiyələrinə və s. müəssisələrdə aparılan işlərə cəlb edilməsi.

**ATU -ninTələbə Elmi Cəmiyyətinin strukturu:**

Tələbə Elmi cəmiyyətinin elmi rəhbəri -Tibb elmlər doktoru Muşviq G Həsənovdur

Tələbə Elmi Cəmiyyətinin sədri:

Həmid Səfərli Xaqani oğlu 221A 2a

Tələbə Elmi Cəmiyyətinin sədr müavinləri

- Daxili işlər üzrə sədr müavinləri:

Səfərli Leyla Xaqani qızı 221A 2a

Əhmədzadə Leyla Əfqan qızı 223A 5b

Heybətzadə Lalə Şahbaz qızı 322T 1a

- Xarici işlər üzrə sədr müavinləri:

Mehriban Səfərəliyeva Calal qızı 219A 1b

Ağayarlı Fəridə Yalçın qızı 220A 10b

Həsənzadə Səbinə Anar qızı 220A 10b

Tələbə Elmi Cəmiyyətinin fakültələr üzrəelmi rəhbərləri və  sədrləri

1.I Müalicə Profilaktika fakültəsi

Elmi rəhbər: Dosent Səbinə Şadlinskaya Vaqif qızı

TEC sədri: Nigar Qafarova Elcan qızı, 5-ci kurs, 119A6a

TEC idarə heyətinin ümumi üzv sayı 5 nəfərdir.

2. II Müalicə Profilaktika fakültəsi

Elmi rəhbər: Dosent Əliyev Aqil Xosrov oğlu

TEC sədri: Fidan Seyfullayeva Yusif qızı, 5-ci kurs, 219A2a

TEC idarə heyətinin ümumi üzv sayı 23 nəfərdir.

3. Ictimai Səhiyyə fakültəsi

Elmi rəhbər: Dosent Baxişli Fərəh Qəhrəman

TEC sədri: Məmmədova Fəridə Zaur , 6-cı kurs 318R-1a

TEC idarə heyətinin ümumi üzv sayı 9 nəfərdir.

4. Stomatologiya fakultəsi

Elmi rəhbər: Baş Müəllim f.f.d. Qadaşova Aybəniz Azik qızı

TEC sədri: Həmzəyev Fərid Bəxtiyar oğlu, 5-ci kurs, 419A3a

TEC idarə heyətinin ümumi üzv sayı 5 nəfərdir.

5. Əczaçılıq fakültəsi

Elmi rəhbər: Dosent Nərgiz Məmmədova Həbib qızı

TEC sədri: Yusifova Lamiyə Etibar qızı, 4-cü kurs, 520A1b

TEC idarə heyətinin ümumi üzv sayı 13 nəfərdir.

6. Hərbi tibb fakültəsi

Elmi rəhbər: tibb xidməti mayoru, PhD Bəxtiyar Əliyev Nurulla oğlu

TEC sədri hərbi üzrə: Rzayev Vahid Məharət oğlu- 618A 2-B

TEC sədri mülki üzrə: Quluzadə Möhsün Mais oğlu-620A 1-C

TEC idarə heyətinin ümumi üzv sayı 6 nəfərdir.

TEC illik fəaliyyəti universitetin təsdiq olunmuş iş planına müvafiq olaraq iş davam etdirilirBelə ki son iki ilkdə -13 dekabr 2020-ci il tarixində ATU-nun TEC-nin təşkilatçılığı ilə universitetin 90 illik yubileyinə həsr olunmuş "Tibb Tələbələrinin və Gənc Alimlərin Web Konfransı" keçirildi. Giriş sözü ilə ATU-nun rektoru professor Gəray Gəraybəyli cıxış etdi. Natiq öz çıxışında belə tədbirlərin əhəmiyyətindən, beynəlxalq elmi əməkdaşlığın inkişaf prespektivliyindən danışmış və konfransın işini açıq elan edərək tələbələrə uğurlar arzulamışdı. İştirak edən qonaqlardan Türkiyə Yeditepe Universitesinin Mama-ginekologiya kafedrasının müdiri prof. Erkut Attar, Naxçıvan Dövlət Universitetinin rektoru dos.İsayev Elbrus konfransda təbrik nitqi söylədilər. Sonra konfrans iş planına uyğun olaraq cərrahiyyə, pediatriya, stomatologiya, onkologiya, mikrobiologiya, histologiya, əczaçılıq, genetika, tibbi statistika üzrə işini davam etdirdi.

TEC in təşkilatciligi ilə kecirilən onlayin formatda Web Konfransda iştirak etmək üçün dünyanın bir çox universitetlərnə rəsmi dəvət göndərilmişdir. Beləliklə, 17 tələbə və gənc alim öz elmi işləri ilə konfransa qatılmışdır. Azərbaycan Tibb Universitetindən 6, Naxçıvan Dövlət Universitetindən 1, Özbəkistan Respublikasının Daşkənd Pediatrik Tibb İnistutundan 1, Daşkənd Tibb Akademiyasından 1, Daşkənd Dövlət Stomatalogiya İnistututundan 1, Tümen Tibb Universitetindən 1, Rusiya Elmi Cərrahiyə Mərkəzindən 1, Dağıstan Dövlət Tibb Universitetindən 1, Tacikstandan 1, Türkiyə Hitit Universitetindən 1, Almaniyadan isə 2 nəfər elmi məqalə ilə çıxış etdilər.19 sentyabr 2021-ci il tarixində Azərbaycan Tibb Universitetinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Respublika Dövlət Mükafatı Laureatı, əməkdar elm xadimi, professor Tamerlan Əziz oğlu Əliyevin 100 illiyinə həsr olunmuş "Tibb Tələbələrinin Və Gənc Alimlərin" beynəlxalq konfransı keçirildi. Onlayn formatda baş tutan konfransda Türkiyə, Özbəkistan, Almaniya, Belçikadan olan gənc alimlər, tələbələr, həkimlər, o cümlədən Azərbaycan Tibb Universitetinin

və Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri iştirak etdilər. Tədbiri giriş sözü ilə ATU-nun Tələbə Elmi Cəmiyyətinin sədri, tibb elmləri doktoru, dosent Müşviq Həsənov açdı. Sonra isə ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, NDU-nun Tibb fakültəsinin dekanı Elsevər Əsədov, ATU-nun professoru Amaliya Əyyubova, Türkiyə Yeditepe Universitetinin Ginekologiya kafedrasının müdiri professor Erkut Ettara çıxış etmişdilər. Natiqlər professor T.Əliyevin həyatı və elmi fəaliyyyəti ilə bağlı keçdiyi şərəfli yoldan, tibb elminə verdiyi töhfələrdən söhbət açdılar. Konfransda müasir təbabətin aktual problemlərinə həsr olunmuş elmi araşdırmalar dinlənildi. Almaniyadan Mehdi Akbarpurun, Cəlal Salatayin, Belçikadan Halid Topalın, Özbəkistandan Sizdiqxocayev Sərdarın təqdim etdiyi məruzələr iştirkçıların böyük marağına səbəb olmuşdur. Həmçinin konfranda ATU-nin I Müalicə-profilaktika fakültəsinin 3, II Müalicə-profilaktika fakültəsinin 3, Stomatolgiya fakültəsinin 2, İctimai səhiyyə fakültəsinin 1, Əczaçılıq fakültəsinin 1 və Naxçıvan Dövlət Universitetinin 4 tələbəsi çıxış etmişdir. Sonda çıxış edən dos.M.Həsənov konfransın keçirilməsində verdiyi dəstəyə görə Universitetin rəhbərliyinə minnətdarlığını bildirdi və iştirakçılara sertifikat təqdim ediləcəyi ilə bağlı məlumatı verildikdən sonra tədbirin bağlanışı oldu.

19 oktyab 2021-ci il tarixində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında gənc alimlərin, rezidentlərin və tibb tələbələrinin iştirakı ilə “Kolorektal Cərrahiyyədə Yeniliklər” mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransa Belçikanın Abdominal Cərrahi Departamentinin Leuven Universitet Xəstəxanasının əməkdaşları professor Albert Volthuis və professor Halit Topal məruzəçi kimi qatılmışdılar.Tədbiri ATU-nun Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev açaraq konfransın proqramı və əhəmiyyəti barədə məlumat vermişdi. Sonra məruzələrin təqdimatına başlanıldı. Məruzəsinə başlayan professor Albert Volthuis kolorektal cərrahiyyə haqqında məlumatlar verib və elmin son nailiyyətlərindən istifadə etməklə düz bağırsağın aşağı bədxassəli şişlərində ən son metodlarla düz bağırsağın eksterpatiyası barədə danışıb. Eyni zamanda özünün tətbiq etdiyi yeni metod haqqında məlumatı diqqətə çatdırıb. Doktor Halit Topal isə məruzəsində öd yollarında aparılan mürəkkəb əməliyyatlardan bəhs edib. Öd kisəsi xaric edildikdən sonra ümumi öd axarında olan daşların laparoskopik olaraq elmin son kəşfi olan alətlərdən istifadə etməklə çıxarılmasını videogörüntü ilə nümayiş etdirib. ATU-nun Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Müşviq Həsənov və Milli Onkologiya Mərkəzinin Abdominal onkologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Niyazi Əsgərov çıxış edərək məruzələrlə bağlı fikirlərini bölüşüb, maraqlı təqdimata görə belçikalı alimlərə təşəkkürlərini bildiriblər.20 dekabr 2021-ci il tarixində Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin müştərək “Endometrioz-cərrahi müalicə və multidissiplinar problemlər” mövzusunda beynəlxaiq Veb konfrans keçiriləcək. Konfransda Türkiyədən doktor Erkut Attar, doktor Rukset Attar, Amerika Birləşmiş Ştatlarından doktor Georgine Lamvu, İtalyadan doktor Simone Ferrero, Almanyadan doktor Jalal

Solati, Azərbaycandan doktor Müşviq Həsənov, doktor Öndər Tulumbacı, Naxçıvandan isə doktor İlhamə Mustafayeva öz məruzələri ilə çıxış edəcəklər.

18-21 iyun 2022-ci ildə Azərbaycan Tibb tarixində ilk dəfə olaraq "Şərqin Qapısı" olan Naxçıvan şəhərində "I Beynəlxalq Tibbi Forumu" keçirildi. Forumun təşkilat komitəsində ATU və NDU-nin müəllim - tələbə heyət, Azərbaycan Milli Onkologiya Mərkəzinin həkim mütəxəsisləri və Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyi yer almışdır. Forumda iştirak etmək üçün xarici dövlətlərdən və ölkəmizin müxtəlif regionlarından olan bilim adamları, professorlar, dosentlər, həkim mütəxəsislər və tələbələr Naxçivana gəlmişdilər. İyunun 18-də saat 14:00-da Naxçıvan Dövlət Milli Dram Teatrında "I Beynəlxalq Tibbi Forumun" açılış tədbiri keçirildi. Təşkilat komitəsi uzvuləri eləcədə ATUnun rektoru Professor Gəray Geraybəli forumun iştirakçılarını qədim Azərbaycan torpağı Naxçıvanda salamlayaraq bildirdi ki, sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədə tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilib. Rector Gəray Gəraybəyli I Beynəlxalq Tibbi Forum dünyanın mötəbər universitetlərini təmsil edən tanınmış həkim və mütəxəssislər arasında birgə elmi tədqiqatların və fikir mübadiləsinin aparılmasında faydalı olacagini bildirdi. Hazırda Azərbaycan Tibb Universiteti bölgəmizin qabaqcıl tədris müəssisələrindən biridir. Universitetimiz dünyanın bir cox ölkələri ilə elm və təhsil sahəsində hərtərəfli əməkdaşlıq edir. Həmçinin Sonda iştirakçılara elmi-tədqiqat işlərində tədqiqatcilara və tələbələrə uğurlar arzuladı. Naxçıvan Dövlət Universitetinin rektoru dos.Elbrus İsayev, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru prof.Əziz Əliyev, İstanbul Yeditəpə Universitetinin rektoru prof.Canan Aykut Bingöl, Qaradəniz Texniki Universitetinin rektoru prof.Hamdullah Çuvalcı da öz ürək sözlərini və təbriklərini forumun iştirakçılarına çatdırdılar. Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin fəxri sədri prof.Cavid Avcıda öz çıxışı ilə yadda qaldı. O, təmsil etdiyi dərnəyin fəaliyyəti barədə danışıb, beynəlxalq səviyyədə həyata keçirdikləri layihələrdən bəhs etmişdir. Qeyd edib ki, Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyi 20 ildən artıqdır Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq edir.

Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyasının sədri dos.Müşviq Həsənov öz çıxışinda forumun keçirilməsində məqsəd Azərbaycanın tibb alimləri və həkim-mütəxəssisləri ilə birlikdə Türkiyə, Özbəkistan, Qazaxıstan, Rusiya, İran, Almaniyadan olan elm adamları arasında fikir mübadiləsinə şərait yaratmaq və birgə müzakirələr aparmaqdan ibarət olduğunu bildirib. Forum da iştirak edən iştirakçılara uğurlar arzulayıb

Forumda Ərzurum  Atatürk Universitetinin rektoru prof.Ömər Çomaklı, İğdır Universitetinin rektoru prof.Mehmet Hakkı Alma, Ərdəbil Universitetinin rektoru prof.Farhad Pourfarzı, Qazi, Qars Qafqaz, İstinyə, Koç, Qaziantep Universitetlərinin və Rusiya Vişnevskiy İnistitunun, Dağıstan Dövlət Tibb Universitetinin, Daşkənd Tibb Akademiyasının yüksək vəzifəli təmsilçiləri iştirak etmişdilər. Forumda iştirak üçün müxtəlif tibb müəssələrinin rəhbər və məsul işçiləri, bir çox  beynəlxalq dərnək və cəmiyyətlərin  sədrləri də gəlmişdilər. Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti və Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə 3 dildə, azərbaycan, ingilis və rus dillərində  keçirilən forum Azərbaycan Tibb tarixində ilk belə tədbirlərdəndir. Dünyanın 7 ölkəsindən 350-dən artıq elm adamlarının qatıldığı forumda 700-dən çox iştirakçı olmuşdur.

Forumun elmi bölmələri aşağıdakı sahələri əhatə etmişdir:

1. Laparoskopik cərrahiyyə kursu, Laparoskopik kolorektal cərrahiyyə kursu,Endometrioz kursu, Bariatrik metobolik cərrahiyyə, Pankreas xəstəlikləri,
2. Plastik estetik və rekonstruktiv cərrahiyyə, Endokrinologiya,
3. İnvaziv endoskopiya, Hepatologiya Erxp kursu, Modern tibbi texnologiyalar, Urologiya Böyrək transplantasiyası, HCC, Virus hepatitləri, Qaraciyər transplantasiyası, Qastroenterologiya, Onkologiya,
4. Oftalmologiya, Pediatriya, Ümumi cərrahiyyə, Ginekologiya, İnfeksion xəstəliklər,
5. Stomatologiya, Tələbə elmi-tədqiqat işləri.

Tədbirə umumilikdə 240-a yaxın elmi çıxış təqdim olmuşdur. Qeyd edək ki,həmin tədbirdə  Azərbaycan Tibb Universitetinin Tələbə Elmi Cəmiyyətinin dəstəyi ilə 7 tələbəmiz iştirak etmiş və onlardan 6 tələbə öz elmi işləri ilə çıxış etmişdirlər.

20 iyun 2022-ci il tarixdə saat 18:00-da  forumun bağlanış tədbiri keçirilmişdir. Bağlanış tədbirində fəxri qonaqlar və iştirakçı cəmiyyət  sədrlərinə plaket, bölmələr üzrə  ən yaxşı təqdimatlara isə plaket və diplomlar verilmişdir. Beləcə, Azərbaycan Tibb tarixində ilk və böyük "I Beynəlxalq Tibbi Forumun" təşkilatçılığına imza atdı.

30 noyabr tarixində Tələbə Elmi Cəmiyyətin elmi rəhbəri fakültə sədrlərli ilə birlikdə universitetimizdə təhsil alan xarici tələbələrlə görüş keçirib. Görüşdə TEC-in elmi rəhbəri, dos.Müşfiq Həsənov geniş məruzə ilə çıxış edib. Fakültə  sədrlərinin aktiv iştirak etdiyi müzakirələrdən sonra TEC- in nəzdində xarici tələbələrdən ibarət qrup yaradılıb. Xarici tələbələrin öz içərisindən həmin qrupa rəhbər təyin olunub. Elə oradaca bir neçə xarici tələbəyə elmi işlər təqdim olunub. TEC-in elmi rəhbəri dos.M.Həsənov müzakirələri yekunlaşdıraraq, indiyədək çox az sayda xarici

tələbəni elmi tədqiqat işlərinə cəlb edə bildiklərini deyib. Qərara alınıb ki, mart ayının sonunda bütün fakültələr üzrə təhsil alan xarici tələbələr üçün konfrans keçirilsin.

9-11 dekabr 2022-ci il tarixində Gürcüstanda "Beynəlxalq Multidisplinad Tibb və Sağlamlıq Elmləri" konfransı keçirilmişdir. Həmin konfransda Azərbaycan Tibb Universitetini I Müalicə-Profilaktika fakültəsinin VI kurs tələbəsi Rəşad Abızadə təmsil etmişdir. O,"Piylənmə zamanı mədənin selikli qişasının sturktural elementlərinin ultrastruktur xarakteristikası" (Elmi rəhbərlər: prof.Qasimov E., t.ü.f.d.Ömərov T., b.ü.f.d.Rzayev F.) adli elmi işi ilə çıxış edərək sertifikata layiq görülmüşdür.

Aprel ayının əvvələrində Azərbaycan Tibb Universitetində Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq tədbir keçiriləcəkdir və bununla bağlı hazırliq işləri görülür.

13-14 aprel 2023-cü il tarixdə Azərbaycan Tibb Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Azərbaycan Tibb Tələbələri və Gənc Alimlərin Beynəlxalq Konqresi" keçirilmişdir. Konqres iştirakçıları əvvəlcə Ulu Öndərin büstü önünə gül dəstələri qoydular. Sonra dövlət himnimizin səsləndirilməsi ilə öz işinə başlayan Azərbaycan Tibb Tələbələri Və Gənc Alimlərinin beynəlxalq konqresində universitetin rektoru, professor Gəray Gəraybəyli açılış nitqi ilə çıxış etdi. İlk növbədə tədbirə qatılan qonaqları, professor-müəllim heyətini və tələbələri salamlayan rektor, 2023-cü ilin Heydər Əliyev ili elan edildiyini və tariximizdə silinməz iz qoyan, Azərbaycanın ən parlaq və tanınmış siması olan dahi şəxsiyyət, uzaqgörən siyasi liderin 100-cü ildönümünün bütün ölkə üzrə qeyd olunduğunu bildirmişdir. Ulu Öndərin səhiyyə sahəsində başladığı islahatları bu gün ölkə başçısı İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayan rektor, son illər ərzində Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində böyük işlər görüldüyünü, geniş islahatlar aparıldığını bildirib. Çıxışının sonunda maraqlı müzakirələrin aparılacağına və nəticələrin həm tələbələr, həm də gənc alimlər ucun çox faydalı olacağına əminliyini ifadə edən rektor, konqresin işinə uğurlar arzulayıb. Sonra Baki Dövlət Universitetinin rektoru dosent Elcin Babayev, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru professor Əziz Əliyev, Naxçıvan Dövlət Universitetinin rektoru dosent Elbrus İsayev, Türkiyə İğdır Universitetinin rektoru professor Mehmet Hakkı Alma, Türkiyə Pelvik Ağrı və Endometrioz dərnəyinin rəhbəri, professor Erkut Attar, Özbəkistan Səhiyyə Nazirliyinin nümayəndəsi professor Nematjon Ergashev də öz ürək sözlərini və təbriklərini konqres iştirakçılarına çatdırdılar. Onlar bu mötəbər konqresdə

iştiraklarından məmnun qaldıqlarını, burada aparılan təcrübə mübadiləsinin bütün iştirakçılar üçün faydalı olacağını söylədilər. Bütün iştirakçılara uğurlar arzuladılar.

Tədbirimizdə Bakı Dövlət Universitetinin rektoru prof.Elçin Babayevin rəhbərliyi ilə professor-müəllim və tələbə heyəti, eləcə də Naxçıvan Dövlət Universitetinin rektoru dos.Elbrus İsayevin başçılığı ilə 33 nəfər, qardaş Türkiyədən 5 nəfər, Özbəkistan Respublikası Tibb Universitetlərindən -14 nəfər, Tbilisi Dövlət Tibb Universitetindən-1nəfər, Dağıstan Muxtar Respublikasından-1nəfər professor-müəllim və tələbə heyəti qatılmışdır. Eyni zamanda İ.M.Seçenov adına Birinci Moskva Tibb Universitetinin Bakı filialının nümayəndə heyəti də konqresimizə də iştirak etmişdir.

Konqres iş planına uyğun olaraq nəzəri təbabət, cərrahiyə, ginekologiya, stomatologiya, terapiya, humanitar ictimai bölmələr üzrə işini davam etdirdi. Sesiyalarda həm azərbaycanlı, həm də xarici mütəxəssislərin məruzələri dinlənildi.

1. Nəzəri Təbabət bölməsi-14 elmi iş
2. Cərrahi bölməsi-20 elmi iş
3. Ginekologiya bölməsi-14 elmi iş
4. Stomatalogiya bölməsi-9 elmi iş
5. Humanitar ictimai bölməsi-6 elmi iş
6. Terapiya bölməsi-13 elmi iş

Ümumilikdə 76 elmi iş dinlənildi.

1. 31 elmi iş – Azərbaycan Tibb Universiteti
2. 18 elmi iş – Naxçıvan Dövlət Universiteti
3. 4 elmi iş – Bakı Dövlət Universiteti
4. 5 elmi iş - I MDTU
5. 13 elmi iş - Özbəkistan Universitetləri
6. 2 elmi iş - Türkiyə Universitetləri
7. 1 elmi iş - Tbilisi Dövlət Tibb Universiteti
8. 1 elmi iş - Dağıstan Universiteti
9. 1 elmi iş - Respublika klinik xəstəxanası

Konqresdə 28 poster çıxışları dinlənildi.

1. 20 elmi iş - Azərbaycan Tibb Universiteti
2. 6 elmi iş - Naxçıvan Dövlət Universiteti
3. 1 elmi iş - I MDTU
4. 1 elmi iş - Türkiyə İğdır Universiteti

Məruzə və poster üzrə çıxış edən  iştirakçılar münsiflər heyyəti tərəfindən qiymətləndirildi. Onlara  sertfikatlar təqdim edildi.

5-9 iyun 2023-cü il tarixində II müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbələri Ağayarlı Fəridə və Həsənzadə Səbinə Niderlandın Groningen şəhərində University Medical center of  Groningen universtetində keçirilən “İnternational Students Conqress of medical sciences” kimi tanınan beynəlxalq konqresə məruzə üçün seçilmişdirlər. Ağayarlı Fəridə münsiflər tərəfindən yüksək qiymətləndiriləərək “Evaluattion of a smartphone based screening tool for neonatal jaundice” də 2 həftəlik  tədqiqat keçmək üçün lahiyyəni qazanmışdır. Həmçinin hər iki tələbəmiz konqresin Azərbaycan üzrə səfirləri seçilmişdilər.

15-16 dekabr 2023-cü il tarixində Özbəkistan Respublikasının Səmərqənd şəhərində Səmərqənd Tibb Universitetinin təşkilatçılıqı ilə keçirilən Beynəlxalq olimpiyadada ATU-nin 4 tələbəsi iştirak etmişdir.

1. Məmmədli Gülgün Vasif q. - MPF II, IV kurs, qr.220A10a
2. Yaqubova Süsən Nazim q. -Stomatologiya fakültəsi-V kurs, qr.419A1b
3. Mahalova Tamara İslam q. - MPF I, IV kurs, qr.120R1a
4. Mahalova  Emel İslam q. - Stomatologiya fakültəsi - I kurs, qr.432R1a

Yekun nəticələrə görə ATU-nin tələbəsi Məmmədli Gülgün “Səmərqənd 2020” Olimpiyadasında 1-ci yerə, Yaqubova Süsən və Mahalova  Emel 2-ci yerə, Mahalova Tamara isə 3-cü yerə layiq görülmüşdür.

27 dekabr 2023-cü il tarixində TEC tərəfindən “Elmi tədqiqat işi necə aparılmalıdır” mövzusunda təlim keçiriləcək. Bu təlimdə universitetə yeni qəbul olan tələbələrə elmi iş necə yazılmalı, daha cox hansı məqamlara diqqət yetirilməli və gələcəkdə onlara verdiyi faydalardan bəhs ediləcək.

Hal hazırda TEC universitetin təsdiq olunmuş iş planına müvafiq olaraq işlərini davam etdirir.














***TEC-in elmi rəhbəri:*** ***t.e.d.,dos. Müşviq Həsənov***